*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 108-114* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2024.1.108*

# Sabir Əhmədlinin "Yamacda nişanə" povestində psixologizm

**Elmira Babayeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: elmirababayeva0791@gmail.com

**Annotasiya.** Azərbaycan ədəbiyyatının 60-cı illər nəsli – Anar, Elçin, Yusif Səmədoğlu və başqaları cəmiyyətdə baş verən dəyişiklikləri, təbəddülatları, yeni ədəbi obrazları, yeni insan duyğularını əks etdirməklə insanın sosial-mənəvi problemlərini açmağa nail oldular. Onlar sosrealizm çərçivəsindən kənara çıxaraq insan amilini ön plana çəkmiş və onun daxili dünyasının ən dərin qatlarına enməyə müvəffəq olmuşlar. 60-cı illər nəsrinin görkəmli nümayəndələrindən olan Sabir Əhmədlinin "Yamacda nişanə" povestində psixologizm" məqaləsində də bu önəmli məsələlərdən bəhs olunur. Əsərin baş qəhrəmanı Laçının timsalında insanın daxili dünyasına səyahət, ictimai varlığa yeni münasibət, sadə insanın həyatının alt qatındakı dərinlik, mənəvi baxımdan kamil insanın kəşfi kimi ciddi problemlər irəli sürülür, yeni və vahid insan konsepsiyasının formalaşması məsələləri təhlilə cəlb edilir. Bununla yanaşı, məqalədə Qulu Xəlilov, Yaşar Qarayev, Bəkir Nəbiyev, Nazif Qəhrəmanlı, Akif Hüseynov, Vaqif Yusifli, Tehran Əlişanoğlu və başqa tədqiqatçıların araşdırmalarına istinad edilərək paralellər və müqayisələr əsasında problem tədqiqata cəlb olunur.
**Açar sözlər:** "altmışıncılar", Sabir Əhmədli, "Yamacda nişanə", insan və zaman problemi, psixoloji nəsr, sosializm cəmiyyəti və insan amili, sosial-mənəvi problemlər

**Məqalə tarixçəsi:** göndərilib – 18.01.2024; qəbul edilib – 02.02.2024

# Psychologism in Sabir Ahmadov's narrative "Trail on the hill"

**Elmira Babayeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: elmirababayeva0791@gmail.com

**Abstract.** The 60s generation of Azerbaijani literature - Anar, Elchin, Yusif Samadoglu and others managed to uncover the social and moral problems of the person, reflecting the changes in society, their problems, new literary images and new human emotions. They went beyond the limits of socialist realism and put the human factor in the forefront and managed to penetrate the deepest parts of its inner world. The article "Psychologism in the narrative "Trail on the Hill"" by Sabir Ahmadov,a prominent figure of the 60s, also deals with these important issues. Serious problems such as the journey into the inner world of human beings, the new attitude to social being, the depths of the ordinary person's life, the discovery of a spiritually mature person, and the creation of a new and unified human concept are addressed. In addition, the article draws the problem on

research based on parallels and comparisons, referring research by Bakir Nabiyev, Gulu Khalilov, Yashar Garayev, Nazif Gahramanli, Akif Huseynov, Vagif Yusifli, Tehran Alishanoglu and others.
**Keywords:** 60s, Sabir Ahmadli, "Trail on the Hill", human and time problems, psychological publication, socialist society and human factor, socio-moral problems

**Article history:** received – 18.01.2024; accepted − 02.02.2024

## Giriş / *Introduction*

XX əsrin 60-cı illərindən etibarən cəmiyyətdə baş verən dəyişikliklər ədəbiyyatdan da yan keçmədi. Sosializm cəmiyyətində baş verən təbəddülatlar yeni ədəbi obrazların, yeni insan duyğularının ədəbiyyata gətirilməsini tələb edirdi. Ədəbiyyatda kök salmış hegemon ideologiyanın monotonluğu yeni tipli yazıçıları təmin etmir, onlar şişirdilmiş qəhrəmanlar yerinə real "kiçik" insan obrazına müraciət etməyə başlayırdılar. Bu insanların həyat tərzi heç kimdən fərqlənmirdi, qeyri-adi istedadları və ehtirasları yox idi. Ancaq bunun əvəzinə bu insanların ilk baxışdan diqqət çəkməyən, yazıçı tərəfindən xüsusi vurğulanmayan mənəvi dünyalarına enilirdi. Sosial-mənəvi problemləri, sıxıntıları olan bu qəhrəmanların ortaya çıxma zərurətini Mehdi Hüseyn hələ 1962-ci ildə qeyd edir, sanki gələcək ədəbiyyatın manifestini açıqlayaraq yazırdı: "Mən cəsarətlə deyə bilərəm ki, bədii nəsrimizdə də, şeirimizdə də yeni bir mərhələyə qədəm qoymuşuq. Bu mərhələnin artıq qəti mövqe tutduğunu iddia etmək üçün tələsməyə ehtiyac yoxdur. Ən mühüm cəhət budur ki, həmin mərhələyə keçməyin tarixi labüdlüyünü bütün ədəbi ictimaiyyətimiz aydın hiss etməkdədir. Həyat hadisələrinin və insan surətlərinin təsvirində və mənalandırılmasında nə isə daha lirik, psixoloji təhlildə daha təmkinli və kamil bir üsul axtarmağın, daha təravətli və təzə ifadə vasitələrinə meyil göstərməyin özü heç də az əhəmiyyətli deyildir" [1, s.3].

Ədəbiyyata "60-cılar" kimi daxil olan nəsil Bəkir Nəbiyev, Qulu Xəlilov, Yəhya Seyidov, Yaşar Qarayev, Nazif Qəhrəmanlı, Akif Hüseynov, Vaqif Yusifli, Tehran Əlişanoğlu və başqalarının tədqiqat predmeti olmuşdur. İnsan və zaman, həyat həqiqətlərinin bədii həqiqətə çevrilməsi, qlobal problemlər, konflikt kimi məsələlər bu tədqiqatçıların qələmində elmi ədəbiyyata gətirilmişdir. Bu tədqiqatlarda yazıçıların üslub, forma, təsvir və ifadə vasitələrinə yeni münasibəti də diqqətdən kənarda qalmamışdır.

## Əsas hissə / *Main part*

60-cılar nəsrinin əsas problematik məsələlərindən biri də yeni psixoloji nəsrin meydana çıxması idi. İlyas Əfəndiyev, Anar, Elçin, İsa Hüseynov, Sabir Əhmədli kimi yazıçıların əsərlərində insanın daxili dünyasına səyahət, ictimai varlığa yeni münasibət, sadə insan həyatının alt qatındakı dərinlik, mənəvi baxımdan kamil insanın kəşfi kimi məsələlər irəli sürülür, yeni və vahid insan konsepsiyası formalaşırdı.

"Psixoloji varlıq olan İnsanın içi, içəri dünyası ictimai məzmundan (sosial əhatədən) tutmuş, mənəvi-əxlaqi dəyərlərə, fəlsəfi sıraya (insan – varlıq, insan – dünya münasibətlərinə) qədər ən müxtəlif səviyyələrdə gəzişir, "öz həqiqətinə" yetməyə can atır. İnsanın iç dünyası nəsrin əsas predmetinə çevrildiyindən, məhz bu səbəbdən tənqidçilərin tez-tez yeni nəsrin aparıcı keyfiyyəti kimi təsbit etdikləri psixologizm qabarır, funksionallıq kəsb edir" [2, s.228].

Psixologizm ədəbi tənqidin də diqqətində olmuş, M.İmanovun "Azərbaycan nəsrində psixologizm", S.İldırımzadənin "Müasir Azərbaycan nəsrində mənəvi-psixoloji problemlər", S.Həsənovanın "Müasir Azərbaycan hekayələrində psixoloji təhlil" və başqa tədqiqatlarda nəsrin daxili təkamülü araşdırılmışdır.

Sabir Əhmədli də yeni psixoloji nəsrin nümayəndələrindən biri olmaqla, "Yaşıl teatr", "Qanköçürmə stansiyası", "Yamacda nişanə" kimi psixoloji nəsr örnəkləri yaratmışdır. Bu baxımdan "Yamacda nişanə" əsəri xüsusilə fərqlənir. Əsərin qəhrəmanı Laçın adi, sönük mühitdə parlayan bir işığı xatırladır. Ancaq sıradan olmayanın normal qəbul edilmədiyi mühitdə yaşamaq onun üçün çətin olur. Çünki sönük cəmiyyət fərqliliyi qəbul etmir. Asif Atanın təbirincə desək, "O yerdə ki, hamı bir-birini bəsit görmək istəyir, o yerdə özünəməxsusluq qəribəlik əlaməti sayılır, şablon normativlərdən kənara çıxmaq isə bəzən "yersiz" olur" [3].

Laçın fiziki baxımdan güclüdür, qüvvətlidir, ilk baxışda cəngavər görünüşlüdür. Onun bu gücü ətraf mühitdə etirazla qarşılanır, qəribə və anlaşılmaz görünür, insanlarla arasına sədd çəkir. Bunun isə iki səbəbi var, birincisi, o öz qəribəliyi ilə insanları psixoloji baxımdan narahat edir, ikincisi isə, mühitinin insanlarında öz yaşayış və mövcudluq tərzinə qarşı bir etiraz doğurur. Ancaq bununla belə, o, insanları vahid mövqedə birləşdirməyi bacarır. Ondan qorxduğunu etiraf edən raykom katibinə ətrafdakıların gülməsi də bu baxımdan səciyyəvidir: "Çoxunun gözü yaşardı, dəsmal axtardılar. Danlananlar da, danlanmayanlar da həmin dəqiqələrdə onları birlikdə güldürən Laçına ürəklərində minnətdarlıq elədilər" [4].

"Yazıçı Sabir Əhmədovun "Yamacda nişanə" povestinin qəhrəmanı Laçın "faciəvi" xarakterdir. Ona görə ki, Laçın mühitində bərqərar olmuş və zehinlərə həkk olunmuş normalara uyğun hərəkət edə bilmir. Ona görə ki, odlu-alovludur, məcraya, qəlibə sığmayandır. Ona görə ki, Laçının atəşinin təbiəti dar mühitə yabançıdır. Ona görə ki, bəsit şəraitdə Laçının gözəl insani məziyyətləri "qəribəlik" kimi qiymətləndirilir. Ona görə də Laçın onu əhatə edənlər arasında artıq adamdır. Ümumi ictimaiyyət, böyük cəmiyyət onun keyfiyyətlərini yüksək qiymətləndirməyə, ona dayaq olmağa hazırdır. Lakin Laçın müəyyən kiçik kollektivdə, kiçik mühitdədir" [4].

Laçına qarşı fikirlər birmənalı deyil, o, qəribə qarşılandığı qədər də sevilən bir insandır. Çünki mühit onu nə qədər özünə yaxınlaşdırmaq istəməsə də, onu özündən kənara da atmır. Onun faciəsi də aralıqda qalması ilə başlayır: "Qorxsalar da, qorxmasalar da, sevsələr də, sevməsələr də Laçın kiçik şəhərin bir ərköyün, dəlisov balası idi. Ərsəyə yetib, qənşərə çıxdığı gündən adamların gözü-qulağı ona elə öyrəşmişdi ki, buranı Laçınsız ağıllarına gətirə bilməzdilər... Yerişində, hərəkətində elə od, hərarət vardı ki, guya keçib getdiyi havaya kibrit çəkəcəklər" [4].

Əsərdə Laçın və onu əhatə edən mühit arasındakı ziddiyyətlər o, iş axtararkən ortaya çıxmağa başlayır. Ona qarşı sabit, mənfi fikir mövcuddur: Laçın heç nə bacarmaz, Laçın heç kimlə evlənə bilməz, Laçın bir işin qulpundan yapışıb normal insan kimi yaşaya bilməz. Hətta əsərin əvvəlində iş istəmək üçün yanına getdiyi raykom katibi də öz-özünə düşünür ki, Laçın vaxtında şoferlərin yanında sürücülük öyrənməyib, onun yanına boş, yararsız biri kimi gəlib. Ancaq sonradan vəsiqəni ortaya qoyanda bu dəfə də düşünürlər ki, o, vəsiqəni qeyri-qanuni yollarla alıb, əsgərə maşın vermək olmaz, onlar maşını məhv edir. Hətta əsgərlikdən anasına yazdığı məktubunda sevincini bölüşəndə də ona inanmırlar, ona görə hərbi xidmətdən qayıdanda təşkil olunan qonaqlıq bitən kimi vəsiqəsinə baxmaq istəyirlər. Vəsiqəni gözləri ilə görməsinə baxmayaraq, sonradan ondan xəlvət qardaşı katibdən xahiş edir ki, Laçına maşın verilməsin.

Laçına yönələn ittihamlandırma ailəsi ilə yekunlaşmır. Sevdiyi qızın atası ağbaş kişi səbəbini bilmədən ondan qorxur, xəstə düşür. İnsanlar ondan şikayətçi olurlar. Ancaq bu şikayətlərin heç bir tutarlı əsası yoxdur. Onu insanlara diqqətlə baxmaqda ittiham edirlər. Həyatdakı yeganə sevgisi olan Sarıtel isə Laçına ən böyük psixoloji zərbəni vuraraq məhəbbətini rədd edir, onu sözləri ilə yaralamaqdan çəkinmir: "Dünya dağıla, bir o qala, bir mən, bizim ulduzumuz barışmaz. Getsin itirdiyini başqa yerdə axtarsın" [4].

Laçın xarakterinin mənəvi aləmi onun daxili monoloqlarında açılır. Qoyub getdiyi elini-obasını olduğu kimi tapmayan Laçın bunun günahını özündə görür.

"Təqsirin hamısı onda idi, adamlar ona görə belə olmuşdular, bu kökə düşmüşdülər. Yox, belə olmaz. Hardasan, Laçın, harda dayanmısan? Hanı sənin dağı-daşı tərpədən, aləmə düşən nərələrin,

səsin-sədan? Özünü unut, Laçın, özündən xəbərin yoxdur. Səni tanımırlar. Axı, oxşamırsan! Əmanət kassasının müdirinin qızı da səni tanımayıb. Axı, sən Sarıtelə o vaxt şəhərdən gələnlərin verdiyi konsertdə sinəsi ilə yol açan cəngavər oğlana da az oxşayırsan, hərəkət lazımdır. Hərəkətə gəlmək, camaatı da hərəkətə gətirmək lazımdır, Laçın!..” [4] Bununla da, yazıçı özü kimi olmayan, davranmayan insanlar mühitində monotonluğun, solğunluğun hökm sürdüyünə işarə edir.

Laçın mənəvi baxımdan təmiz adamdır. Ona görə onun üzünə gülüb, başqa şeylər düşünən insanların duyğuları ona yaddır. Səbrlə maşın alacağı günü gözləyən Laçın bilmir ki, o gün çox uzaqdadır. Bunu dərk etdikdə isə uzun illər qardaşına duyduğu dərin hörmət və çəkingənlik hissi şübhə ilə əvəzlənir. Beləcə, o, artıq öz taleyini sorğulayan, buna etiraz edən üsyankar bir xarakterə çevrilir. Bununla da, içindəki özünügünahlandırma duyğusu məcrasını dəyişərək qardaşına və mühitinə yönəlir. Daxili monoloq xarici monoloqla əvəz olunur: “Bir halda ki sarsağam, nəinki sükan etibar etməzlər, mənə qız da vermək olmaz. Bir Laçının ki qardaşı öz ayağı ilə gedə böyüklərdən xahiş edə, ona maşın verməyin, onda Laçına kim qız verər, kim?” [4].

Mənən zəngin olan Laçın özünə tənqidi yanaşmağı bacarır, eyni zamanda “doğma yurdunun daş atılmış qurbağa gölünə dönməyinə” dözə bilmir, bu yeknəsəkliyə yazığı gəlir.

Yaşadığı sönük mühitdə bir işıq kimi parlayan Laçın obrazını söndürmək bu mühitin insanlarının əsas qayəsinə çevrilir. Onlar iki yol arasında qalırlar: 1) Laçını ağır bir işə göndərmək 2) evləndirmək.

Ona bir çox iş təklif olunsa da, yalnız sürücü kimi çalışacağını bəyan etdikdən sonra Laçını yanğınsöndürmə idarəsinə şofer göndərirlər. Onun xarakterinin bilinməyən cəhətləri də Həsənxan ilə dialoqlarında açılır. İşə ilk gəlişini yazıçı belə təsvir edir: “...ona elə gəldi ki, buraya qədəm basıb daxil olduğu dəqiqədə buzdan üzülüb qopan bir gilə su düz təpəsinə düşdü və “cızz” elədi. Guya kişi, həqiqətən bir sal buzdu. Laçın od. Onu – Laçını buraya ona görə göndərmişdilər ki, görsünlər bunların hansı davamlıdır” [4]. Bununla da, yazıçı əslində, Laçının öz məhvini şüuraltı dərk etməsini göstərmək istəmişdir.

Laçının gözü ilə baxanda Həsənxanın papağındakı ulduzun itdiyini, təkcə oraq-çəkicin göründüyünü sezirik. Ədəbiyyatımızda və mifologiyamızda günəşin, işığın, aydınlığın simvolu olan ulduzun yox olması, əslində, sosrealizm həqiqəti içərisində məhv olan ümid işığının yox olması, kor-koranə itaətin mövcudluğunun simvolu kimi mənalandırıla bilər.

Həsənxan yanğın maşınının rənginin mənasını izah edərkən yazıçı maraqlı məqamlara toxunur: “Yanğın nədən törəyir? Şübhəsiz, qığılcımdan, bircə qordan. Deməli, gərək həmin o qığılcımı vaxtında görüb söndürəsən ki, böyük yanğına çevrilməyə. Çünki yanğını söndürmək olmur, söndürənə qədər xeyli ziyanlıq törədir. Əsas qordur, nə qədər ki, alova çevrilməyib dərhal üstünü torpaqlamalı, ya da ən etibarlısı – su tökməli. Bil, bizim düşmənimiz qordur, qığılcımdır, çirpəkdir və sair” [4]. Əslində bir qor olan Laçının buraya söndürülmək üçün göndərildiyini dərk edən Həsənxan onun qarşısına bir çox maneələr çıxarır. Bu da düşünülmüş əməliyyatın bir hissəsidir.

Qıpqırmızı, kənardan alov təsiri bağışlayan maşın Laçının içini isitmir. Çünki alov olan Laçına başqa bir alovun varlığı təsir göstərə bilmir, bu onun üçün adidir. Burada adiləşmə və fövqəltəbiilik müşahidə etmək mümkündür. Hər kəs üçün fövqəltəbii görünən bir şey onsuz da fövqəltəbii olan birinə qeyri-adi gələ bilməz: “İki divar arasında dayanan maşın alovdu. Hətta bir baxışda, qara təkərlər çatılmış kösöv – odun parçası, maşının gövdəsi isə yanıb lalıqlamış köz yığını, bəlkə də polad əridən atəşli soba timsalında göründü. Bu alov on metrdən adamın üzünü, əllərini qarsmalı ikən iki addımda dayanan oğlanı azacıq, bir küləşin, bir kağız qırığının istisincə qızdırmadı” [4].

İdarənin divarlarında asılan alətlər ona uşaqlığını, məktəb illərini xatırladırdı. Elm adına onun yadında qalan tək söz “herbari” idi. Divara düzülmüş alətlər ona uşaq vaxtı topladığı cücüləri, böcəkləri xatırladırdı. Yazıçının bu ədəbi priyomu təsadüfi deyil. Mövcud cəmiyyət qurudulmuş, candan, qandan məhrum, duyğuları olmayan herbariyə bənzədilir. Ancaq Laçını məktəbdən soyudan təbiət dərslərinin azlığıdır. Buradan bu qənaətə gələ bilərik ki, hətta Laçına maraqlı gələn herbari top-

lamaq da onu məktəbə – dolayısı ilə cəmiyyətə dözməyə məcbur edə bilmir. Cəmiyyətlə barışmazlıq elə uşaqlığından – məktəb illərindən Laçında formalaşmışdı.

Laçını sındırmaq üçün Həsənxanın seçdiyi vasitə uzun müddət davam edə bilmir, o, bir gün bu sərhədləri sındırır: "Həsənxan, maşın adam kimidir. Bir yerdə saxlayarsan, saxlayarsan, axırda bilmərrə tərpənməz, inan. Sürüm yuxarı kəhrizə, yoxlayım, həm də üzünə su çiləyib havaya verim, qərəmətdən çıxsın" (4). Bununla Laçın sətraltı olaraq ona qarşı yönələn qüvvələrə etirazını bildirir.

Laçının işə düzəlməsindən sonra səhhəti normallaşan, təhlükənin keçdiyini düşünən ağbaş kişi "Lalə"nin (yanğınsöndürən maşına uşaqların verdiyi ad – E.B.) ortaya çıxmasından sonra yenidən xəstələnir. Onu xəstə cəmiyyətin simvolu olaraq təqdim edən yazıçı fərqlilik, yenilik, gözəllik gördüyü halda buna özünəməxsus reaksiya verən bir varlıq kimi yanaşır. Laçının əhali üçün su daşımasından sonra insanlarla barışması onun adiləşməyə doğru getdiyini göstərir. Ağbaş kişidən üzr istəməsi, onunla barışması da xəstə cəmiyyətlə Laçının razılaşmağa başladığının əlamətidir. Bu vəziyyət onun Həsənxanla dialoquna qədər davam edir. Həsənxan yaşadığı cəmiyyətdən yüksəkdə dayanan Laçına qarşı göstərdiyi münasibətdən, onu su daşıyaraq sönən, rüşvət alaraq bəsitləşən bir varlığa çevirməsindən utanc hissi duyur. "… ən çətin, fəqət etibarlı və ağıllı tədbir yenə də ondan ibarətdir ki, Laçının canında olan odu onun özünə hiss etdirmədən yavaş-yavaş yox etmək. İstiyə qarşı soyuqluq" [4]. Laçının alovlanmaq təhlükəsinin qarşısını almaq üçün planlar quran Həsənxan onu iki vasitə ilə – Laçını ona biganə olmayan mamaça ilə qarşılaşdırmaq və onun hər gün su ilə təmasını təmin etməklə "yola gətirməyə" çalışırdı.

Bütün vasitələr sınanandan sonra onun gecə növbəsində işləməsini də təşkil etmək üçün rəhbərlik səviyyəsində göstərişlər verilir. Ancaq bu, Laçının qabağında yeni, heç bilmədiyi bir dünya açır. 30-cu illərdə banditlərlə mübarizədə həlak olmuş sərhədçi əsgərin məzarını görməsi, ordan yayılan işığın fərqində olması sanki gələcəkdə də onun cəmiyyətin şəhidi olacağına bir işarədir. Şəhid məzarını qəbiristanlıq xofu kimi deyil, bir nur mənbəyi kimi qəbul edən Laçın Həsənxanın önündə də heç bilmədiyi yeni üfüqlər açır. Laçın linglə uzun illər bağlı qalan pəncərəni aralayaraq Həsənxana, dolayısı yolla cəmiyyətə yeni bir pəncərə açıla bilməsinin mümkünlüyünü göstərir. Ancaq bu cəmiyyət Həsənxan kimi Laçına qarşı tolerant ola bilmir. Laçınla ünsiyyətdə mənən arındığının fərqinə varan Həsənxan cəmiyyətin buna hazır olmadığını da dərk edir.

Laçın obrazına geniş pəncərədən baxarkən onu italyan yazıçısı Dino Buzzatinin hələ 1940-cı ildə yaratdığı, "Tatar çölü" romanının qəhrəmanı Covanni Droqoya bənzədə bilərik. Tatar çölündəki qalaya hərbçi kimi gedən Covanni ömrü boyu şimaldan gələcək düşmənləri gözləyir və özünün şanlı əsgər kimi döyüşəcəyinə, qalib ordunun komandanı olacağına ümid edir. Ancaq o gün gələndə Droqo işindən uzaqlaşdırılır. Laçın obrazının düşüncələri də bu baxımdan maraqlıdır. "O zaman, həmin dəqiqələrdə ölü alətlər adamların nəzərində elə qüvvəyə çevriləcək ki, əvəzsiz... Bu isə ancaq yanğın düşsə, mümkündür. Həftələr, aylar, bəlkə illər keçəcək. Laçın bu həftələrin onunu-yüzünü buraxıb birində yaşaya biləcək. Ömrün-günün beləcə keçəl qarğıdalı kimi seyrək keçəcəyinin fikrini çəkməkdə ikən, o, bir qədər bərk yatağa uzandığı halda, təzəcə süzülmüş şirə kimi mət, sütül bir coşğunluq duydu" [4].

Əsərin ən maraqlı məqamlarından biri də Həsənxanla Laçının qadınlar haqda söhbətidir. Cəmiyyətdə əsl kişi hesab edilmək üçün qadınlarla qeyri-qanuni münasibətlərin əsas götürülməsi, bunun kişilər arasında qürur duyulan bir əməl olması Laçına qəribə gəlir. Ona görə Həsənxanla söhbətində yalan danışır. Ancaq sonradan evlənmək məsələsi gündəmə gələndə əvvəl yalan dediyini etiraf edir. Bir qəlbin bir insanı unudub başqasına meyil salmasını dərk edə bilmir. Belə fikir Laçına tamamilə yaddır. O, Sarıteldən başqa heç kimlə evlənməyi təsəvvürünə belə gətirə bilmir: "Heç vaxt, heç zaman mən başqasının haqqında düşünməmişəm. Gözüm açılandan qız adına, həyat yoldaşı adına onu görmüşəm. Seçməmişəm, axtarmamışam. Əsgərlikdən ona nə qədər məktub yazmışam, burda da neçəsini yazmaq istəmişəm. Amma bircəciyini də nə göndərmişəm, nə vermişəm" [4].

Laçın onu dəyişdirməyə çalışan, gücünü gücsüzlüyündən ayıran cəmiyyətə öz daxili monoloqu ilə cavab verir: “İnsanda iki qüvvə yox, bir qüvvə var. O da budur: adam nə qədər güclüdürsə, o qədər gücsüzdür. Hər bir canlı öldürməyi, yıxmağı bacardığı qədər ölməyə, yıxılmağa hazırdır. Gücsüzlük-güclülük eyni qüvvədir, belədən-belə çevrilir, elədən-elə. Sevgi-məhəbbət də bu təhər, müəllim! Misal üçün adi bir almanı götürək: həm acıdır, həm şirin. Ayıra bilməzsən onun öz acısını öz şirinindən. Su — hidrogeni də var, oksigeni də. Onu da ayıra bilməzsən. Ayıra bilərsən ha, müəllim, onda alma almalıqda qalmır, su da itir...” [4]

Özündə fövqəlqüvvə hiss edən Laçın yalnız məzardan gələn işığı görür: “Bu gecə oğlana vəhy gəlmişdi. Bir qədər beləcə davam etsə, hara gedib çıxacaqdı, allah bilirdi... Həmin gecə ay, guya elə nöqtədən çıxmışdı ki, işığı yalnız bir yerə düşürdü. Qonşu yamacın üstdəki məzara. Yamacdakı tək qəbir daşı ağappaqdı. Ayın qar ziyasına bənzəyən şüası ordan süzülüb bəridə — yanğın idarəsi ilə məzarın arasındakı dərənin üzərində dayanırdı. Elə idi ki, guya həmin dərə boş, quru olmayıb, sahillərinəcən siləbəsilə dolu, ağ-göy suyu asta-asta yırğalanan və ancaq gecələr, min gecənin birində gözə görünən təmiz dağ dəryaçasıdır” [4].

Laçının əxlaqi məsələlərdə təmizliyi onun mamaça ilə görüşməyə razılıq verməsindən sonra ortaya çıxır. Ancaq bu, bir qədər də kədər doğuran məqamdır. Bu məqamdan sonra onun cəmiyyətlə barışmazlığı, hadisələrə dözə bilməməsi daha kəskin nəzərə çarpır. Həsənxanın mamaça ilə əlaqəsi olduğunu düşünərək onu döyür. Onu döyməsinin səbəbi isə təkcə Həsənxanın ona yalan deməsini düşünməsi yox, həm də bir qadının əxlaqına qarşı hörmətsizlik kimi qiymətləndirməsidir. Sonradan məlum olur ki, əslində, onun düşündükləri xəyal imiş. Yaşadığı mühit onu dəliyə çevirir. Yalana nifrət edən Laçın Həsənxanın yoxa çıxması ilə sorğuya çəkilir. Bu məqamda yalan deməyə məcbur olması olduqca canlı təsvirlərlə verilmişdir: “O qədər yalan demişdi ki, rəis bir yana, özü özünə hirslənmişdi. Dünyada yalan danışmaqdan, yalançı görünməkdən də əclaf iş varmı?” [4] Laçının düşdüyü situasiyanı Herman Hessenin qəhrəmanları ilə müqayisə etmək mümkündür. Yazıçı həyatda “etmərəm” dediyi hər şeyi etmək məcburiyyətində qalan qəhrəmanına göstərir ki, bu hal əslində insanın taleyinin bir hissəsidir. Ancaq bununla nə qədər barışmaq, ya da buna nə qədər baş qaldırmaq insanın təbiətindən, psixoloji durumundan asılıdır.

Laçının psixologiyası Həsənxanın Bakıya getməsindən sonra daha geniş açılır. Onun gözləri yanğınları bir hallusinasiya kimi görür. Burada da əslində xüsusi ştrixlər vardır. Bu zamana kimi onun cəmiyyətlə münasibətləri sanki Həsənxan vasitəsilə tənzimlənir. Həsənxan alışmaqda olan odun üstünə atılan sudur. Ancaq bu alovu söndürmür, nəzarət altında saxlayır. Onun gedişi ilə yanğın nəzarətdən çıxır. Laçın hər gecə şəhərin başqa-başqa yerlərindən yanğın xəbərləri aldığını güman edir.

Bu, yazıçının arzularını əks etdirmə biçimidir. O, həqiqətən, yeni yanğınların olmasını, sabitliyin pozulmasını, yeni bir odun canlılıq yaratmasını istəyir. Bunun mümkün olmadığı, insanların yeknəsəkliyə uyumlu həyat tərzi keçirdiyi mühitdə isə o yanğının olması mümkünsüzdür.

Gecənin gündüzə çevrildiyi bir ildırımlı gecədə isə Laçın tamamilə yox olmağı seçir. Ona qarşı birmənalı münasibət göstərməyən cəmiyyət onun üçün dözülməz olur. O işığın məhv olduğu gecə Həsənxan ümid edir ki, Laçın maşından düşüb canını qurtarmış ola bilər. Əslində, bu işığın həyatına gətirdiyi mənanın fərqində olan surət kimi Həsənxan obrazı xüsusi fərqlənir.

Həsənxan bilir ki, onun istinadgahı həmişə tənha əsgər məzarı olmuşdu. Buna görə də sürüşmə baş verəndə onun uçuruma yox, məzara baxdığına şübhəsi yox idi. “Görəsən, qarajdan çıxarkən arxaya baxırmışmı? Baxıbsa, yeganə nişanətək həmin əsgər məzarını görüb” [4]. Sabir Əhmədli nurdan qopub gələn tənha obrazını zülmət dünyadan qoparıb yenidən gəldiyi yerə – nura qovuşdurur. Cismən ölən Laçın, əslində ona layiq olmayan cəmiyyətdən uzaqlaşaraq əbədiyaşarlıq qazanır.

**Nəticə / *Conclusion***

Sabir Əhmədli zəngin və çoxşaxəli Azərbaycan ədəbiyyatına yeni forma, məzmun, dil və ifadə orijinallığı, nəsrimizə dövrün, zamanın bütün təbəddülatlarını dərk edən, anlayan tipik insan obrazını gətirən istedadlı yazıçılarımızdandır. Azərbaycan nəsrini ənənəvi stereotiplərdən uzaqlaşdıraraq ona tamamilə yeni ideya, özünəməxsus forma və struktur özəlliyi bəxş edən yazıçının geniş və çoxcəhətli yaradıcılığı ədəbiyyatımızın yaddaqalan səhifələrini təşkil edir. Azərbaycan romanının inkişafında müstəsna rol oynayan Sabir Əhmədlinin sovet imperiyasının iç üzünü açan, cəmiyyətdə baş verən ictimai-siyasi və sosial problemləri geniş epik lövhələrlə əks etdirən monumental əsərləri Azərbaycan nəsrinin ən yaddaqalan səhifələri kimi çağdaş ədəbiyyatımızın zəngin söz xəzinəsində mühüm yer tutur.

**Ədəbiyyat / *References***

1. Mehdi, H. Yeni mərhələ, yeni vəzifələr. "Azərbaycan" jurnalı, – 1962, № 7.
2. Əlişanoğlu, T. XX əsr Azərbaycan nəsrinin poetikası. – Bakı: Elm, – 2006. – 312 s.
3. http://www.asifataocagi.com/wp-content/uploads/2014/06/insan-ve-senet.pdf
4. http://www.azadliq.org/a/24705144.html

## Психологизм в повести Сабира Ахмедова «След на холме»

**Эльмира Бабаева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: elmirababayeva0791@gmail.com

**Резюме.** Поколение так называемых «шестидесятников» в литературе Азербайджана – Анар, Эльчин, Юсиф Самедоглу и другие сумели достичь глубокого раскрытия социально-нравственных проблем современного им человека, отображая перемены и преобразования, происходившие в обществе, новые человеческие ощущения, сложившиеся в результате них, а также создавая новые художественно-литературные образы. Выходя за рамки идейно-литературных канонов социалистического реализма, они выдвинули на передний план человеческий фактор, добившись вникания в самые глубинные пласты его внутреннего мира. В представленной статье анализируются вышеотмеченные значимые вопросы, встречающиеся в повести Сабира Ахмедова, видного представителя прозы шестидесятников, «След на холме». При этом выдвигаются такие серьезные проблемы, как своеобразное путешествие во внутренний мир человека в лице главного героя произведения Лачына, глубина низшего пласта жизненного мира простого человека, открытие нравственно совершенного человека. Так же привлекаются к анализу вопросы, связанные с формированием концепции нового и единого человека. Вместе с тем, в данной статье указанная проблема изучается на основе параллелей и сравнений, базирующихся на научных работах таких исследователей, как Бекир Набиев, Гулу Халилов, Яшар Караев, Назиф Гахраманлы, Акиф Гусейнов, Вагиф Юсифли, Техран Алишаноглу и других.
**Ключевые слова:** «шестидесятники», Сабир Ахмедов, «След на холме», проблема человека и Времени, психологическая проза, социалистическое общество и человеческий фактор, социально-нравственные проблемы